

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Qəzet 1921-ci ildən çıxır

Sayı: 220 (21.121)

19 noyabr 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Peter Tasenin Bosniya-Hersoqovinada çıxan, mədəniyyət, incəsənət, elm jurnalı olan “DIOGEN pro”-dakı məqaləsi




## Azərbaycan: Naxçıvan Muxtar Respublikası 90 illik yubileyini qeyd edir

***Bu il bir çox beynəlxalq alim və arxeoloqlar tərəfindən insan sivilizasiyasının beşiyi sayılan Naxçıvan Muxtar Respublikasının tarixində mühüm mərhələdir. Bu il 9 aprel 2014-cü il tarixdən Azərbaycan Prezidenti İlham Əliyev ilə birlikdə Naxçıvan rəhbərliyi Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyi münasibətilə mərasimlər keçirməyə başlayıblar.***

IV əsrdən bəri qapalı region olan Naxçıvan Muxtar Respublikasının faciəli hadisələri ilə dolu bir qanlı və ağrılı tarixi var. Azərbaycanın bu ərazisi 5500 kvadratkilometr, əhalisinin sayı isə 435400 nəfərdir. Ermənistan, İran və Türkiyə ilə həmsərhəddir. Naxçıvanı Azərbaycandan ayıran ərazi zolağı 44-45 kilometrdir və Araz çayı istiqamətinə genişlənir.

Erməni hökuməti tərəfindən Naxçıvanı Azərbaycanın şərq hissəsi ilə birləşdirən dəmir yolu koridorunun bağlanması nəticəsində Naxçıvan Azərbaycandan tam təcrid edilmişdir. Digər mühüm və ədalətsiz tarixi fakt isə Zəngəzur mahalının qanunsuz şəkildə 1920-ci ildə Sovet İttifaqının rəhbərləri tərəfindən Azərbaycandan alınaraq Ermənistana verilməsidir. Çoxlu tarixi təsvirlərdə göstərilir ki, Zəngəzur Azərbaycan ərazilərindən biridir və XX əsrdə Ermənistan silahlı qüvvələrinin təşkil etdiyi etnik təmizləmə siyasətinə məruz qalmışdır. Bundan əlavə, eyni dövrdə (1918-1920-ci illərdə baş verən daşnak vəhşilikləri) Azərbaycan kənd və şəhərlərində, Şuşa və Cəbrayılda erməni silahlı qüvvələrinin mülki əhaliyə qarşı törətdikləri zorakı hərəkətlər nəticəsində əhalinin yaşayış şəraiti pisdən-pisə doğru artmışdır. Qana susamış erməni generalı Andranik Ozanyanın komandanlığı altında nizami erməni ordusu 1918-ci ilin oktyabrında etnik təmizləmə kampaniyasına başlayaraq yerli azərbaycanlı əhalidən ya ermənilərin nəzarəti altında yaşamağı, ya da ki, torpaqları tərk etmələrini tələb etmişdir. Bu hadisələr bu gün eyni ilə “İslam Dövləti” (İŞİD) ordu qruplaşmaları tərəfindən işğal olunan İraq şəhərlərində və Yaxın Şərqdə azlıq təşkil edən, öldürülməkdə olan xristian qruplara qarşı törədilir. Cəbrayıl və Şuşada çox kəndlər məhv edilmişdir və həmin kəndlərin torpaqları ermənilər tərəfindən alt-üst edilmişdir. 50 mindən çox müsəlman qaçqın qismən Cəbrayıl rayonunun qonşu ərazilərində yerləşmiş, çoxlu sayda qaçqın soyuq hava səbəbi ilə ölmüşdür. Zəngəzur rayonunda 115-dən çox kənd yandırılmış və tamamilə məhv edilmişdir.

Naxçıvanda 1162 sayda tarixi-mədəniyyət abidələri vardır və onlardan 58-i dünya mədəniyyəti üçün böyük əhəmiyyət kəsb edir. Onlar YUNESKO-nun mədəni irs siyahısına alınmışdır. Qazançı qalası (b.e.ə III minillikdə inşa edilib), Əlincəqala (Əlincəçayın sağ tərəfində yerləşir, III əsr), Əshabi-Kəhf, Nuh türbəsi (VIII-XII əsr), Gəmiqaya rəsmləri, Möminə xatın türbəsi (XII əsr), Gülüstan türbəsi (XIII əsr) ən mühüm tarixi abidələrdən bəziləridir.

Naxçıvanın bugünkü sahəsi XVI əsrdə Səfəvi dövlətinin bir hissəsi olmuşdur. 1828-ci ildə son Rusiya-İran müharibəsi və Türkmənçay müqaviləsindən sonra Naxçıvan xanlığı Rusiya imperator hakimiyyətinin nəzarəti altına keçmişdir. Rusiya imperiyasının süqutundan sonra Naxçıvan Azərbaycan Xalq Cümhuriyyətinin bir hissəsi olmuş və bu hökumətin müstəqilliyi 23 ay sürmüşdür.

I Dünya müharibəsi başa çatdıqdan sonra Rusiya bolşevik inqilabı rəhbərlərinin erməni silahlı qüvvələri tərəfindən “böyük Ermənistan” iddialarının genişlənməsinə şərait yaratması nəticəsində erməni təcavüzkarları maksimum ərazi üstünlükləri üçün hərəkətə keçdilər. Yerevan bu üstünlükdən istifadə edərək qonşu ölkələrdən mümkün qədər torpaqlar, əsasən, Azərbaycan torpaqlarını işğal etmək istədi.

Erməni silahlı qüvvələrinin əsas niyyətlərindən biri Naxçıvanı işğal etmək idi. 1918-20-ci illərdə xarici işğalçılar Naxçıvana nəzarət edirdi, general Andranikin rəhbərliyi altında erməni silahlı dəstələri dəfələrlə Naxçıvan torpağını işğal etməyə cəhd etdilər. Naxçıvan əhalisinin cəsarətli müqaviməti və Türkiyənin böyük dəstəyi sayəsində erməni işğalçıları Naxçıvanı işğal edə bilməmişlər.

Bu gün Naxçıvan başqa Qərbi Avropa əyalətləri kimi təpələr üzərində parlayan bir regiondur və müasir infrastruktura malikdir. Naxçıvan şəhərindəki Cəlil Məmmədquluzadə adına müasir teatr binası xüsusi memarlıq üslubu və akustik xüsusiyyətinə görə Qafqaz regionunda ən gözəl binalardan biridir. Cəlil Məmmədquluzadə adı vətənpərvərlik və ata yurduna sədaqətin böyük dəyərlərini təcəssüm etdirir ki, bu da bütün Naxçıvan sakinlərinin ürəklərində var. Məmmədquluzadə ana dili həmrəyliyi hərəkatını müdafiə edən güclü aktivist və vətənpərvər idi. Məmmədquluzadə Naxçıvanda anadan olmuşdur. O, 1887-ci ildə Qori Müəllimlər Seminariyasını bitirmiş və növbəti on il üçün Baş Noraşen, Uluxanlı, Nehrəm və İrəvan quberniyasının digər şəhər və kəndlərində müəllim işləmişdir. Məmmədquluzadə öz müasirlərini Azərbaycan dilinə hörmətsizlik edərək onun əsl lüğət tərkibini oxucu üçün çaşdırıcı olan yeni təqdim olunmuş rus, fars və osmanlı türk sözləri ilə əvəz etdiklərinə görə tənqid etmişdir. Daha sonra o, Azərbaycan əlifbasının romantizasiya prosesində fəal iştirak etmişdir. 1898-ci ildə o, İrəvana, 1903-cü ildə isə Tiflisə köçüb və orada Azərbaycan dilində nəşr olunan yerli “Şərqi-Rus” qəzetində icmalçı işləyib. 1906-cı ildə Məmmədquluzadə “Molla Nəsrəddin” satirik jurnalını təsis edib. Qafqaz regionunda tez-tez baş verən hərbi münaqişələr və siyasi qeyri-sabitlik onu Təbrizə köçməyə vadar etdi. Məmmədquluzadə orada karyerasını “Molla Nəsrəddin” jurnalında baş redaktor və köşə yazarı kimi davam etdirdi. 1921-ci ildə Mirzə Cəlil Bakıya köçdü.

Naxçıvan tarixi üçün əhəmiyyətli yubiley ilində bu teatr binasında Naxçıvanın folkloru və zəngin mədəniyyətini (Azərbaycanın vətənpərvərlik beşiyi dünyaya təqdim olunmalıdır) nümayiş etdirən müxtəlif mədəniyyət tədbirləri keçirilmişdir.

## “Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı haqqında” Sərəncam Heydər Əliyev yoluna sədaqətin, dövlətçilik ənənələrinə dərin hörmətin nümunəsidir

***17 noyabr 2014-cü il Naxçıvan tarixinə qızıl hərflərlə yazıldı. Həmin gün hamı, sözün əsl mənasında, bir bayrağın altında toplaşmışdı: Şərqin bu qədim şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin açılış mərasimi keçirildi. Bu əlamətdar gündə milli dövlətçilik atributu olan üçrəngli bayrağımız haqqında tarixi sərəncam imzalandı.***



Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın Azərbaycanın dövlətçilik tarixinə verdiyi töhfələr misilsizdir. Uzaq keçmişdən başlayaraq burada yaranmış dövlətçilik ənənələri böyük inkişaf yolu keçərək daha da möhkəmlənib, milli ənənələrin müasir idarəçilikdə varisi lokomotivinə çevrilib. Dövlətimizin varlığını və fəaliyyətini təsdiq edən milli bayrağımız 1918-ci ilin 9 noyabr tarixində Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunub. Ölkəmiz müstəqillik qazandıqdan sonra bu üçrəngli bayraq xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilib. Məhz 1990-cı ilin 17 noyabr tarixinə təsadüf edən həmin tarixi gündə “Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında” tarixi qərar qəbul edilib, Şərqdə yaradılmış ilk müstəqil Azərbaycan Cümhuriyyətinin varislik ənənələri qətiyyətli iradə, böyük cəsarət sayəsində öz tarixi və hüquqi haqqını alıb. Bu, həmin dövr idi ki, hələ çoxları Sovetlər Birliyinin yenidən bərpasına inanır, milli dövlətçilik yolunda atılan bu addımların mərkəzdən cavabsız qalmayacağını gözləyirdi. Dahi şəxsiyyət Heydər Əliyev isə heç nəyi gözləmədən müdrikcəsinə bu tarixi ədaləti bərpa etdi. On illər boyu hər kəsdən gizlədilən, yalnız könüllərdə öz yerini tutan milli bayrağımız böyük sevgi və cəsarətlə qədim Naxçıvan torpağında yenidən qaldırıldı. Ölkəmizin şəhər və rayonlarının, küçə və parklarının, dövlət binalarının 70 ildən çox həsrətini çəkdiyi üçrəngli bayraq yenidən ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin binasının önündə dalğalanmağa başladı. Eyni zamanda Azərbaycan Respublikasının Ali Sovetinə təklif olundu ki, üçrəngli bayrağımız Azərbaycanın dövlət bayrağı kimi qəbul edilsin. Daha sonra üçrəngli bayraq bütövlükdə Azərbaycan Respublikasının Dövlət Bayrağı kimi qəbul olundu.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı haqqında” 17 noyabr 2014-cü il tarixli Sərəncamı isə bir daha bu tarixi günün mahiyyətini dərk etməyə imkan verir. İmkan verir ki, ***“... Azərbaycanın tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağının rəsmi olaraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində qəbul olunmasını və bu günün dövlətçilik tariximizdəki əhəmiyyətini nəzərə alaraq... hər il noyabr ayının 17-ni Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı günü kimi”*** qeyd edək...

Bu sərəncam eyni zamanda Azərbaycan dövlətinin müstəqilliyinin bərpası və qorunmasında, deməli, həm də milli dövlətçiliyimizin qorunması və inkişaf etdirilməsində misilsiz xidmətlər göstərmiş dahi şəxsiyyət Heydər Əliyev yoluna sədaqətin nümunəsidir.

İki gün bundan əvvəl imzalanmış sərəncamın da, Dövlət Bayrağı Meydanı və Muzeyinin açılış mərasiminin keçiriləcəyi günün tarixi də təsadüfən seçilməyib. Mərasimdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***“Dövlət Bayrağı Meydanı və Muzeyini ziyarət edən hər bir insan, hər bir gənc dövlət rəmzlərinin tariximizdəki yeri barədə məlumatlandırılmalı, dövlət atributlarının mahiyyəti və əhəmiyyəti geniş təbliğ olunmalı, ümummilli liderimiz Heydər Əliyevin səyi ilə üçrəngli bayrağımızın ilk dəfə dövlət bayrağı kimi qaldırıldığı gün – noyabrın 17-si hər il Naxçıvan Muxtar Respublikasında əlamətdar tarixi gün kimi qeyd edilməlidir”.***

Yeri düşmüşkən, Bayraq Muzeyində dövlət atributlarımızın yaranma və təsisedilmə tarixini əks etdirən dəyərli eksponatlar vardır. Və bu eksponatlar dövlət atributlarımız haqqında məlumatların gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu eksponatlar içərisində ən dəyərlisi isə muzeydə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında qəbul olunan “Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında” Qərarın surəti və həmin tarixi günə aid fotoşəkillərdir.

Bəli, Naxçıvanın tarixinə iki gün bundan əvvəl mühüm bir tarixi gün yazıldı. 1924-cü ildə bu qədim diyarın qazandığı muxtariyyət statusunu möhkəmləndirən və bu tarixi statusun dövlətçilik ənənələri ilə bağlılığını əsl nümunə kimi ortaya qoyan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 noyabr 2014-cü il tarixli “Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı haqqında” və 22 avqust 2014-cü il tarixli “Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında” sərəncamları milli dövlətçilik ənənələrinə dərin hörmətin ifadəsi, xalqa, Vətənə sevginin təzahürüdür.

**Səbuhi HƏSƏNOV**

## Heydər Əliyev Muzeyində növbəti açıq dərs



*Noyabrın 18-də Heydər Əliyev Muzeyində "Moskva və Qars müqavilələrində Naxçıvan məsələsi" mövzusunda növbəti açıq dərs keçilib. Açıq dərsdə Heydər Əliyev adına tam orta məktəbin şagirdləri iştirak ediblər.*

Məktəbin tarix müəllimi Nurlana Həsənova Moskva danışıqlarında Azərbaycanın təmsilçisi Behbud ağa Şahtaxtinskinin yorulmaz fəaliyyətindən danışıb.

Bildirilib ki, daim Vətəninin taleyini düşünən Behbud ağa Şahtaxtinskinin 1921-ci il martın 1-də V.İ.Leninə göndərdiyi məktubda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ ərazilərinin gələcəyi ilə bağlı narahatlıq ifadə olunub. Türkiyə və Rusiya arasında gedən danışıqlar isə 1921-ci il martın 16-da imzalanan Moskva müqaviləsi ilə yekunlaşıb. Müqavilədə qədim diyarla bağlı qeyd edilən maddədə Azərbaycanın Naxçıvanın protektoratı üçüncü dövlətə verə bilməyəcəyi xüsusi vurğulanıb.

Qeyd olunub ki, müqaviləyə əsasən, Naxçıvan sərhədləri Ararat stansiyası, Kömürlüdağ, Qurdqulaq kəndi, Həməsür dağı, Kükü dağı və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədini təşkil edib. Moskva müqaviləsi ilə Naxçıvan məsələsi özünün ədalətli həllini tapıb.

Qars konfransı barədə də danışan Nurlana Həsənova bildirib ki, bu konfrans Türkiyə və Cənubi Qafqaz respublikaları arasındakı həll olunmamış məsələlərin nizama salınması məqsədilə 1921-ci il sentyabrın 26-dan oktyabrın 13-dək davam edib. Uzun sürən mübahisə və müzakirələrdən sonra imzalanan, 20 maddə və 3 əlavədən ibarət olan Qars müqaviləsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqləyib. "Naxçıvan ərazisi" başlıqlı 3-cü əlavədə bölgənin sərhədləri qəti surətdə müəyyənləşdirilib. Müqavilənin 5-ci maddəsi, bilavasitə, Naxçıvanın taleyi ilə bağlı idi. Burada tərəflər Naxçıvanın statusu barədə razılığa gəldiklərini qeyd ediblər.

Sonra şagirdlər muzeyin ekspozisiyası ilə tanış olublar.

*Noyabrın 18-də Naxçıvan Özəl Universitetində Yeni Azərbaycan Partiyası (YAP) Naxçıvan Şəhər Təşkilatı ilə birgə Yeni Azərbaycan Partiyasının yaradılmasının 22-ci ildönümünə həsr olunmuş konfrans keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.*

## Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır



Konfransı giriş sözü ilə universitetin rektoru, professor İsmayıl Əliyev açıb.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, YAP Naxçıvan Şəhər Təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərlinin məruzəsi dinlənilib. Bildirilib ki, Yeni Azərbaycan Partiyası XX əsrin 90-cı illərinin əvvəllərində ölkədə yaranmış mürəkkəb ictimai-siyasi şəraitdə yaradılıb. Bu illər ərzində baş verən tez-tez hakimiyyət dəyişiklikləri və daxili siyasi qarşıdurmanın dərinləşməsi nəticəsində ölkədə böhran vəziyyəti qorxulu həddə çatmışdı. Cəmiyyət ümumxalq inamına malik olan və ilk növbədə, milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanaraq ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyurdu. Bu səbəbdən xalqımızın böyük oğlu Heydər Əliyevin rəhbərliyi altında yeni siyasi partiya yaratmaq istəyi ilə 1992-ci ilin oktyabrında ziyalılar mətbuatda Ona müraciət ünvanladılar. Partiyanın təsis konfransı 21 noyabr 1992-ci ildə Naxçıvanda keçirildi və dahi rəhbər Heydər Əliyev Yeni Azərbaycan Partiyasının Sədri seçildi.

Elman Cəfərli bildirib ki, konfransda Azərbaycanın əksər rayonlarından cəmiyyətin bütün təbəqələrini təmsil edən 550 nümayəndə iştirak edirdi. Beləliklə, ölkədə baş verəcək hadisələrin axarını köklü və konstruktiv surətdə dəyişən partiya meydana çıxdı. Yeni Azərbaycan Partiyası qısa müddətdə geniş şöhrət qazanaraq cəmiyyətin bütün təbəqə və kateqoriyalarından olan sağlam qüvvələri öz ətrafında birləşdirə bildi, beləliklə, ümumxalq partiyasına çevrildi.

Qeyd olunub ki, yarandığı gündən Yeni Azərbaycan Partiyasının ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və uğurla tətbiq edilən əsas proqram-məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsindən, ərazi bütövlüyünün təmin edilməsindən, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulmasından, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaratmaqdan ibarət olub və partiya bu 22 ildə öz məqsədlərinə uyğun fəaliyyət göstərib. Məhz buna görə də ümumxalq partiyasına çevrilən, 630 mindən çox üzvü olan YAP bu müddət ərzində ölkədə keçirilən prezident, parlament və bələdiyyə seçkilərində inamlı qələbələr qazanaraq qələbələr partiyası kimi çıxış edib.

Universitetin Xarici dillər fakültəsinin dekanı Hüseyn Bağırsoylunun "Ulu öndər Heydər Əliyev və Azərbaycanda milli dirçəliş", "xarici dil müəllimliyi" ixtisasının IV kurs tələbəsi Hafizə Seyidzadənin "Dahi rəhbər Heydər Əliyev və Naxçıvan", universitetin müəllimi Könül Babayevanın "Yeni Azərbaycan Partiyası Azərbaycanın müstəqilliyinin qarantıdır" mövzularında çıxışları olub.

Konfransa universitetin rektoru, professor İsmayıl Əliyev yekun vurub.

**Xəbərlər şöbəsi**

## Operativ vergi nəzarəti günün tələbidir

*Son illər muxtar respublikamızda həyatın bütün sahələrinin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması istiqamətində həyata keçirilən tədbirlər vergi orqanlarını da əhatə edib.*

Məhz belə tədbirlər həmin qurumlara həvalə olunmuş vəzifələrin vaxtlı-vaxtında yerinə yetirilməsində, muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunmasında, nəzarət-kassa aparatlarından düzgün istifadə edilməsində, vergi orqanlarına uçotda durmadan fəaliyyət göstərən ödəyicilərin aşkar olunmasında, xarici valyuta sərvətlərinin ödəniş vasitəsi kimi qəbul edilməsində, işəgötürənlə işçilər arasında əmək müqavilələrinin bağlanmasına nəzarət və sair kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlərdə əsaslı dönüş yaradılmasına stimul olub. Vergi ödəyicilərinin müntəzəm olaraq maarifləndirilməsi də bəhs edilən sahədə əhəmiyyətli rol oynayıb.

Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi tərəfindən aparılan operativ vergi nəzarəti tədbirləri də belə qənaətə gəlməyə əsas verir. Nazirliyin Qanunsuz sahibkarlığın aşkar edilməsi şöbəsinin rəisi Rəşad Əliyev söhbət zamanı bildirdi ki, 2014-cü ilin ötən 10 ayı ərzində bütün sahələr üzrə 106 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilib və müvafiq tədbirlər görülüb.

Həyata keçirilən operativ nəzarət tədbirləri zamanı 28 vergi ödəyicisi tərəfindən əhali ilə nağd hesablaşmaların aparılması qaydalarının pozulması, 34 vergi ödəyicisi tərəfindən xarici valyuta məbləğlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi və valyuta sərvətlərinin ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb-satılması və ya dəyişdirilməsi faktları aşkarlanıb.

"İlin ötən on ayı ərzində 2 vergi ödəyicisində 2 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edilməsi, 15 vergi ödəyicisinin "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşıması, 18 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) olmadan məşğul olmaları, 3 vergi ödəyicisində isə aksiz markası olmadan alkoqollu içki və tütün məmulatlarının satışı faktları aşkar edilib", – deyən şöbə rəisi onu da bildirdi ki, əlavə olaraq keçirilən nəzarət tədbirləri zamanı 6 şəxsin vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olduqları aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb. Həmin şəxslərdən 4-nün fəaliyyəti şəxsi nəqliyyat vasitələrindən istifadə etməklə sərnişindaşıma xidməti, 2 şəxsin fəaliyyəti isə səyyar qaydada qanunsuz olaraq ticarət fəaliyyəti göstərmələri olub.

Aparılan operativ nəzarət işləri zamanı tərtib edilən 15370,00 manat inzibati cərimə və maliyyə sanksiyası məbləğlərinin büdcəyə tamamilə ödənilməsi təmin olunub.

Şöbə rəisinin sözlərinə görə, qeyd olunan dövr ərzində 64 obyektdə nəzarət-kassa aparatlarının quraşdırılması təmin edilib, vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 16 vergi ödəyicisində xronometraj metodu ilə müşahidələr aparılıb və müşahidələr zamanı müşahidəyədək olan dövriyyələrlə müqayisədə 28381,4 manat dövriyyə artımına nail olunub. Bu da hər bir vergi ödəyicisinə məxsus hər bir obyekt üzrə orta hesabla 35,5 manata yaxın vergi məbləğinin əlavə olaraq büdcəyə ödənilməsidir.

2014-cü ilin ötən 10 ayı ərzində bank orqanları tərəfindən ticarət, iaşə, xidmət və dövlət rüsumu alan idarə, müəssisə və təşkilatlarda quraşdırılmış 619 ədəd POS-terminalın vergi orqanlarında qeydiyyatdan keçirilməsi təmin edilib.

Sonda şöbə rəisi onu da bildirdi ki, qeyd olunan dövr ərzində Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi tərəfindən müvafiq icra hakimiyyəti orqanları ilə birgə tədbirlər planına əsasən, işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsinin Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi bağlamaqla rəsmiləşdirilməsi, əməkhaqlarının real göstərilməsi ilə bağlı tikinti, ticarət, iaşə və digər xidmət obyektlərində araşdırmalar mütəmadi olaraq davam etdirilib.

*Operativ vergi nəzarəti, vergi ödəyiciləri və işəgötürənlər arasında maarifləndirmə tədbirləri davam etdirilir.*

**Muxtar MƏMMƏDOV**

*Əhalinin banklarla qarşılıqlı etibarlılığa əsaslanan partnyorluğu bank xidmətlərindən istifadə məqsədilə edilən müraciətlərin kəmiyyət baxımından da artımına səbəb olub. Bu, bank hesablarının artımında da özünü büruzə verib.*

## Müasir dövrün tələbləri səviyyəsində qurulan xidmət əhalinin banklara etibarını artırıb

Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsinin mətbuat xidmətindən aldığımız məlumata görə, banklar tərəfindən 2014-cü il noyabr ayının 1-i tarixinə 2 min 233 hüquqi, 33 min 945 fiziki şəxs olmaqla, 36 min 178 müştəriyə xidmət göstərilibdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 12 min 199 ədəd çoxdur. Xidmət olunan hesabların 33 min 145-i aktiv hesab olub ki, onların 1312-si hüquqi, 31 min 836-sı fiziki şəxsdir.

Cari ilin 10 ayında 95-i hüquqi, 15 min 771-i fiziki şəxs olmaqla, 15 min 866 nəfər müştəriyə yeni bank hesabı açılıb. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 8 min 698 ədəd çoxdur. Açılmış bank hesablarının 15 min 810-u aktiv hesab olub.

1 noyabr 2014-cü il tarixə muxtar respublikanın iqtisadiyyatına yönəldilən kredit qoyuluşu 97 milyon 767 min, o cümlədən qısamüddətli kredit qoyuluşu 14 milyon 872 min manat, uzunmüddətli kredit qoyuluşu 82 milyon 896 min manat təşkil edib.

Bank və digər kredit təşkilatları tərəfindən 2014-cü ilin ilk 10 ayı ərzində 44 milyon 448 min manat kredit verilibdir ki, bunun da 27 milyon 245 min manatını uzunmüddətli kreditlər təşkil edir. Verilmiş kreditin 14 milyon 533 min manatı kənd təsərrüfatının, o cümlədən 3 milyon 831 min manatı bitkiçiliyin, taxılçılığın, kartofçuluğun və bostan-tərəvəz məhsulları istehsalının, 541 min manatı isə arıçılıq və quşçuluğun payına düşür. Ümumilikdə, verilmiş kreditlərin 2 milyon 267 min manatı sənaye, 6 milyon 530 min manatı tikinti, 3 milyon 967 min manatı kommersiya, 14 min 700 manatı nəqliyyat, 17 milyon 135 min manatı daşınmaz əmlakla əlaqədar ipoteka kreditləri və digər kommunal, sosial və istehlak kreditlərinin verilməsi kimi sahələrə yönəldilib.

Banklar tərəfindən əhalidən cəlb edilmiş əmanətlərin həcminin ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 noyabr 2014-cü il tarixə 1 milyon 815 min manat artaraq 6 milyon 568 min manat olması əsas verir deyək ki, əhali artıq banklara etibar edir. Xarici valyuta ilə cəlb olunan əmanətlərin həcmi isə 1 milyon 748 min manat təşkil edir. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 653 min manat artım deməkdir.

**Rauf ƏLİYEV**

## Uzunoba Su Anbarına 80 min balıq buraxılıb

Son illər muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərinin bir hissəsini də göllərin, su anbarlarının əsaslı təmir və yenidən qurulması istiqamətində görülən işlər təşkil edir. Cari ildə də bu istiqamətdə işlər uğurla davam etdirilib, 8 milyon kubmetr su tutumu olan Uzunoba Su Anbarı əsaslı təmir və yenidənqurma işlərindən sonra istifadəyə verilib. Bu, suvarma suyuna olan tələbatın ödənilməsinə əlverişli şərait yaratmaqla bərabər, balıq ehtiyatlarının zənginləşdirilməsinə də geniş imkanlar açıb.

Dünən Naxçıvan Şəhər İcra Hakimiyyəti tərəfindən muxtar respublikamızda balıq ehtiyatlarının zənginləşdirilməsi məqsədilə İran İslam Respublikasından alınmış 4 növdə – çəki, amur, qalın və ala növləri olmaqla, ümumilikdə, 80 min ədəd vətəgə əhəmiyyətli balıq Uzunoba Su Anbarına buraxılıb.

## Şərur energetikləri ağ fəslin sınağına hazırdır

Bu il avqustun 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilib. Müşavirədə qarşıya konkret vəzifələr qoyulub. Bu tapşırıqların icrası üçün Şərurda da ardıcıl və məqsədyönlü işlər görülür. Belə ki, qısaqapanmaya, uzaq məsafələrə, enerjinin normal gərginliklə verilməsinə, yararsız vəziyyətə düşmüş elektrik verilişi xətlərinin və xüsusilə küləkli, çovğunlu günlərdə qəzaya səbəb olan, istismar müddəti başa çatmış elektrik dirəklərinin yenisi ilə əvəz olunması və dayaqlararası məsafələrin normaya salınması istiqamətində kompleks tədbirlər həyata keçirilib. Şərur Rayon Elektrik Şəbəkəsinin direktoru Mehman Tağıyev bildirib ki, elektrik xətlərinin təmiri və mövcud transformatorların sazlığı həmişə diqqət mərkəzində saxlanılır. Müxtəlif gücə malik 3 ədəd transformator, 2850 metr məftil, 29 ədəd dib gövdə, 37 ədəd ağac dirək, 22 ədəd keçid izolyatoru, 250 metr kabel, 850 kiloqram transformator yağı, 180 kiloqram sarğı materialı, 14 ədəd yüksəkgərginlikli cərəyan transformatoru, 100 ədəd kabel ucluğu, 3 ədəd avtomat açar, 2 ədəd xətt ayırıcısı, 30 metr alüminium şin və sair alınıb şəbəkənin anbarında ehtiyatda saxlanılır.

Şərur energetikləri yüksək dövlət qayğısı ilə əhatə olunublar. Rayon Elektrik Şəbəkəsi təmir emalatxanası, qarajları olan müasir üslublu üçmərtəbəli binada yerləşir. Burada kollektiv üçün lazımi iş şəraiti yaradılıb. Elə bunun nəticəsidir ki, onlar daha yaxşı fəaliyyət göstərməyə, tapşırılan vəzifənin öhdəsindən layiqincə gəlməyə çalışırlar. İrəliləyiş isə göz qabağındadır. Cari ilin ilk on ayında enerji sərfiyyatı 63 milyon 87 min kilovat-saat olub, ümumilikdə, 1 milyon 689 min 818 manat vəsait toplanıb. Bu isə on aylıq tapşırığa 100,10 faiz əməl olunması deməkdir.

Havalar getdikcə soyuyur, yağışlı günlərin sayı artır. Təbiət öz sərt üzünü göstərməkdədir – axı qış günbəgün yaxınlaşır. Amma bu da var ki, qış şərurluları heç də qorxutmur. Bu, ilk növbədə, onunla bağlıdır ki, muxtar respublikamız artıq tamamilə qazlaşdırılıb, elektrik enerjisinə olan tələbat təmin edilib.

**Xəbərlər şöbəsi**

*Yollar zirvəyə gedir...*

Hər şeyi bildiyini güman edən insanlar həmişə təbiətlə ünsiyyətdə olanda çoxsaylı etiraflarla üz-üzə qalırlar. “Görünür, hələ çox öyrənməliyəm”, “Görəsən, təbiət bu məsələni niyə məhz bu şəkildə həll edir?” kimi fikirlər məhz adam tək olanda, öz düşüncələri ilə baş-başa qalanda yaranır. Belə bir anı mən də yaşadım. Özü də təbiətin əsrarəngiz məkanında – ***Sədərəkdə***.

*Jurnalistin qeydləri*

# Sədərəkdə inkişaf və yüksəliş möhkəm təməl üzərindədir



...Dostumla vədələşdik ki, axşamüstü saat 5-də Heydər Parkında görüşək. Bura indi Heydərabad qəsəbəsində görüş yeri təyin edənlərin ən tez yadlarına düşən ünvanlarındandır. Hava yaxşı olduğuna görə vədələşdiyimiz yerə bir az tez gəlmişdim və hələ solmaq istəməyən gül-çiçəyin arasında bir qədər gəzişirdim. Hər gün qayğı göstərilən və yayın axır günlərində əkilmiş gül-çiçək hələ tam solmasa da, cavan, qollu-budaqlı ağacların yarpaqları artıq xeyli müddətdir ki, tökülür. Yerə tökülmüş yarpaqlara yazığı gəlirmiş kimi boylandım və... heç zaman fərqinə varmadığım qəribə bir lövhənin şahidi oldum. Bütün yarpaqlar yerə üzü üstdə düşmüşdü. Yəni ağacda olduğu kimi yox, tərsinə qərar tutmuşdu. Ən maraqlısı o idi ki, bütün yarpaqların saplağı yuxarı – ağaca doğru uzanmışdı. Bu, nə idi? Yarpağın hələ yaşamaq istəyi, yoxsa ağacdan ayrılmaq istəmədiyinin ifadəsi? Nə bilmək olardı? Fakt o idi ki, yarpaqların hamısı ağaca doğru “dartınırdı”. “Yaratdığına şükür, İlahi!” – deyib yuxarı baxanda gördüm ki, dağın ətəyində kol-kosdan qalxan yarpaqlar da yuxarıya doğru uzanır. Lap yuxarıda – qarlı dağların başına dolanan buludlar da öz yerində. Bir anda mənə elə gəldi ki, Sədərəkdə sanki hamı, hər şey üzü zirvəyə, yüksəkliyə doğru can atır.

Bir azdan görüşdüyüm dostuma bayaqdan məni heyrətləndirən məqamları söylədim.

– Görünür, təbiətlə az ünsiyyətdə olursan, – dedi. – Təbiət insana çox şey öyrədir, xüsusən torpaq, bar-bəhər dərin bir müdrikliyin mənbəyidir. İnsan ucalığa doğru gedən bütün yolları təbiətdən öyrənib.

– Bunları bildim, bəs o yarpaqların hamısının saplağı nə üçün budaqlara sarıdır?

– Bəlkə də, ağaca müraciət edirlər ki, bizi əvəz edəcək yarpaqlar dünyaya gətirənə qədər özünü qardan, çovğundan qoru. Hər halda, təbiətin öz qanunları var və insanlar zirvəyə gedən yolun sirlərini məhz o qanunlardan öyrəniblər. Bu gün Sədərəkdə bütün yollar zirvəyə doğru gedir. Dostumu yaxşı başa düşdüm. İndi artıq söhbət buludun və ya qartalın qalxdığı zirvədən deyil, qarşıya qoyulan məqsədlərə varılan zirvədən gedir.

Doğrusu, “qarşıya qoyulan məqsədlərin zirvəsi” ifadəsini də birinci dəfə eşidirdim. İfadə təzə olsa da, bu qəbildən olan həqiqətləri Sədərəkdə çox görmüşəm. Verilən tapşırıqların layiqincə yerinə yetirilməsi, qarşıya qoyulan məqsədlərə ən yüksək səviyyədə nail olmaq üçün nümayiş etdirilən əzmkarlıq sanki hər bir sədərəklinin tale yazısıdır. Neçə illərdir, bu sərhəd bölgəsilə tanışlığım, əməkdaşlığım var, hələ bircə dəfə də olsun, bu rayonda hansısa tapşırığın yarımçıq yerinə yetirilməsinin və ya kiminsə qarşıya qoyulan məqsədə birtəhər, ala-babat şəkildə çatdığının şahidi olmamışam. Ona görə də həmsöhbətimin “Sədərəkdə bütün yollar zirvəyə doğru gedir” ifadəsi ilə səmimi-qəlbdən razılaşdım.

Sədərək, doğrudan da, ilin bütün fəsillərində gözəldir. Son illər burada yeni binalar tikilib, yaşıllıq zolaqları salınıb, Sədərək daha da dəyişib, gözəlləşib, abad yurda çevrilib. İnsan əli təbiətə sığal çəkib, onu daha da gözəlləşdirib.

Ancaq gözəlləşən, zənginləşən təkcə təbiət deyil. Son illər sərhəd bölgəsi Sədərəkdə həyatın bütün sahələrində əsaslı inkişaf və irəliləyiş əldə edilib, genişmiqyaslı tikinti-quruculuq və abadlıq işləri aparılıb, iqtisadi, sosial və mədəni sahədə dinamik inkişaf təmin edilib.

### *Güllələr düşən yerdə gül bitir, imarətlər ucalır indi*

Sədərəyin indiki büsatını görəndə inana bilmirsən ki, yaxın keçmişdə bu yerlər müharibənin törətdiyi gözdağlayan, ürəkgöynədən xarabalıqlar olub. İllər sübut etdi ki, ulu öndər Heydər Əliyevin siyasi kursu ən doğru seçilmiş yoldur. Bu yolu yenilməz sədaqətlə, müasir dövrün inkişaf prinsiplərinə uyğun yaradıcılıqla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin müdrik daxili və xarici siyasəti sayəsində Azərbaycan tarixən qısa bir zamanda bütün dünyanı heyran qoyan inkişaf səviyyəsinə yüksəldi. Ölkənin artan iqtisadi qüdrəti sayəsində bütün regionlarla bərabər, cəbhə bölgələrinin də siması dəyişdi. Bu sırada Sədərəyin yeri tamam başqadır...

Təmas xəttinin iki addımlığında yerləşən Sədərək bənzərsiz yaraşığı, xoş növrağı ilə, sözün gerçək mənasında, düşmənlərimiz üçün gözdağına çevrilib. Əlbəttə, görəni heyran edən bu ürəkaçan mənzərə sehrli bir çubuqla yaranan möcüzə deyil. Bu, Vətənini, xalqını sonsuz məhəbbətlə sevən, muxtar respublikanın hər qarışını gülüstana döndərməyə çalışan Ali Məclis Sədrinin yenilməz iradəsinin, tükənməz qurub-yaratmaq əzminin məntiqi nəticəsidir. Bu bölgədə adama xoş gələn ən üstün cəhət isə odur ki, daş üstə qoyulan hər daş, ucalan hər bina, əkilən hər ağac, gül-çiçək Vətənə gerçək sevginin canlı təzahürüdür. Burada iş xatirinə iş görmək istəyən yoxdur. Böyüklüyündən, kiçikliyindən asılı olmayaraq, görülən hər bir iş candan, könüldən görülür.

Sədərək rayonunun inkişafı həmişə dövlətin diqqət mərkəzində olub. Elə “Muxtariyyət ili”ndə də abadlıq, quruculuq işləri yüksək ahənglə davam etdirilir. Bu ilin yanvar ayında əsaslı təmir olunan və yenidən qurulan Sədərək kənd 1 nömrəli tam orta məktəbin binası qapılarını müəllim və şagirdlərin üzünə açıb.

Rayonda tikinti-quruculuq işləri bununla məhdudlaşmır. Bu il 1500 hektar sahəni suvarmaq üçün Şir arxından qidalanan yeni nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisi başa çatdırılaraq əhalinin istifadəsinə verilib. Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin yeni xidməti binası da cari ilin ərməğanlarındandır. Hazırda rayonda Təhsil və Torpaq şöbələri üçün inzibati binanın tikintisində son tamamlama işləri görülür, rayon ərazisində Araz çayında sahilbərkitmə işləri davam etdirilir.

Sədərəkdə ən mühüm layihələrdən biri də içməli su və kanalizasiya sisteminin qurulmasıdır. Bu, rayon sakinlərinin çox böyük razılığı ilə qarşılanıb. Bu məsələnin həlli isə sadə iş deyil, ağır zəhmət, külli miqdarda vəsait tələb edən bir işdir.

Bir məsələni də qeyd edək ki, həyata vəsiqə alan bütün obyektlər müasir arxitektura üslubunda inşa edilib. Düşmənə gözdağı olan bu tikililəri sədərəklilər qoruyub saxlamağı, gələcək nəsillərə ərməğan etməyi özlərinin vətəndaşlıq borcu sayırlar.

### *Uğurları əks etdirən statistika*

Azərbaycan Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladıqları dövlət proqramlarından, fərman və sərəncamlardan irəli gələn vəzifələrin yerinə yetirilməsi Sədərəyin uğurlarını şərtləndirən başlıca amillərdəndir.

Cari ilin ilk doqquz ayında rayonda ötən ilin müvafiq dövrü ilə müqayisədə sənaye məhsulu istehsalı 1,2 faiz artaraq 3 milyon 244,9 min manata, kənd təsərrüfatı məhsulları istehsalı 6,2 faiz artaraq 10 milyon 970,6 min manata yüksəlib.

Doqquz ayda pərakəndə əmtəə dövriyyəsinin həcmi 20 milyon 723,6 min manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövründən 2,2 faiz çoxdur. Əhaliyə göstərilən pullu xidmətlərin həcmi 2013-cü ilin müvafiq dövrünün səviyyəsini 5,2 faiz üstələyərək 2 milyon 696,8 min manat olub. 2014-cü ilin ilk doqquz ayında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilən investisiya 16 milyon 349,9 min manata, tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyaların həcmi 14 milyon 817,2 min manata çatıb.

Rayon üzrə orta aylıq əməkhaqqının artım dinamikası da qalmaqdadır. Hazırda 399,9 manat təşkil edən orta aylıq əməkhaqqı ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz çoxdur. Doqquz ayda 65 nəfər daimi işlə təmin edilib.

Rabitə xidmətinin müasir tələblər səviyyəsinə qaldırılması, elektrik enerjisi, təbii qaz və su təminatını yaxşılaşdırmaq məqsədilə həyata keçirilən tədbirlər əhalinin razılığı ilə qarşılanır.

### *Müqəddəs torpaq*

Sədərəyin torpağı bərəkətli, insanları zəhmətkeşdir. Yerli əhali ta qədimdən heyvandarlıq və əkinçiliklə məşğuldur. Torpağa bu bağlılıq nəsildən nəslə ötürülərək bu gün də yaşadılır. Rayonda təcrübəli, necə deyərlər, “torpağın dilini bilən” adamlar çoxdur. Torpaq da, öz növbəsində, onunla ülfət bağlayandan öz səxavətini əsirgəmir, sinəsində bol məhsul yetişdirir. Götürülən məhsulun bir hissəsi ehtiyac üçün ayrılır, qalan hissə isə satılır. Pulu ilə oğul evləndirir, qız köçürdür, ev tikdirir, maşın alır, təsərrüfatlarını genişləndirirlər.

Dedik ki, rayonda “torpağın dilini bilən” adamlar çoxdur. Onlar insan yaranışının əsası, dörd əsas ünsürdən biri olan torpağa müqəddəs bir varlıq kimi münasibət bəsləyirlər. Onu gücdən, taqətdən düşməyə qoymurlar. Şum altına mineral və üzvi gübrələrin verilməsinə laqeyd münasibət göstərmirlər. Nəticə isə göz qabağındadır. Cari ilin məhsulu üçün rayonda 3574 hektar sahədə əkin aparılıb. Bölgədə daha çox inkişaf etdirilən əkinçilik sahələrindən biri taxılçılıqdır. Ölkənin ərzaq təhlükəsizliyi proqramına sanballı töhfələr verməyə çalışan rayon əməkçiləri bu il 2130,2 hektar sahədən 6146 ton “sarı kəhrəba” tədarük ediblər. Hektarın məhsuldarlığı 28,9 sentnerə çatdırılıb. Qazanılan nəticə taxılçıları gələn təsərrüfat ilində daha yüksək uğurlara ruhlandırıb. Hazırda rayonda əkin kampaniyasının ən qızğın dövrüdür.

### *Sərhəd bölgəsi daha xoş sabahlara addımlayır*

Bəli, Sədərək inkişaf edir, abadlaşır. Rayon sakinləri sərhəd bölgəsində yaşamaqla fəxr edirlər. Buradakı qaynar həyatda gənclər xüsusilə fəal mövqe tuturlar. Rayonun gecələri nur selinə qərq olur. Bir sözlə, sərhəd bölgəsi qədim Sədərək aydan-aya, ildən-ilə daha da gəncləşir. Söhbət açdığımız bu bölgə, sözün həqiqi mənasında, möcüzələr yurdudur. Hər doğan Günəş, hər açılan səhər xoş müjdələri ilə bu yerin övladlarının könlünə nikbinlik toxumu səpir. Dövlətin qayğısından güc alan Sədərək camaatı Vətənə, xalqa, dövlətimizə sədaqətli olduqlarını fəal vətəndaş mövqeləri ilə hər gün dönə-dönə sübut edirlər.

Bu yazıda rayon həyatının bəzi sahələri haqqında konkret faktlar və rəqəmlər əsasında fikir söyləməyə çalışdıq. Ümumi mülahizələrin hamısını bir cümlədə belə ifadə edə bilərik: aparılan bütün tədbirlər rayonda iqtisadiyyatın daha da inkişaf etdirilməsinə, yeni iş yerlərinin yaradılmasına, insanların maddi rifah halının yaxşılaşdırılmasına xidmət edir.

***Sədərək öz qədim tarixinə daha bir uğurlu ili əlavə etməyə hazırlaşır. 2014-cü il quruculuğun geniş miqyasda davam etdirilməsi, sosial-iqtisadi göstəricilərin yüksəlməsi ilə əlamətdardır. Həyata keçirilən əsaslı tədbirlər, nəzərdə tutulan yeni planlar, müəyyənləşdirilmiş vəzifələr isə rayonu yeni uğurlara doğru aparır. Sədərəkdə işlər bir an belə səngimir. Burada adamların yeganə devizi vardır: düşmənə gözdağı olan doğma yurdumuzu cənnətə döndərək.***

**Cəfər ƏLİYEV**

## Sığortaolunanlar yaşa görə əmək pensiyalarının məbləğini necə hesablaya bilərlər?

*1993-cü ildən başlayaraq ümummilli lider Heydər Əliyev tərəfindən həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan Respublikasında siyasi sabitlik bərqərar edilməklə əldə olunan dayanıqlı iqtisadi inkişaf əhalinin sosial müdafiəsinin gücləndirilməsinin əsas amilinə çevrildi. Məhz bu dövrdə ölkənin pensiya təminatı sisteminin qabaqcıl beynəlxalq təcrübəyə uyğun yenidən qurulması sosial siyasətin strateji istiqamətlərindən biri kimi müəyyənləşdirildi.*

Ötən illər ərzində həyata keçirilən islahatlarla Azərbaycanda müasir və sosial baxımdan yüksək səmərəyə malik pensiya təminatı sisteminin yaradılmasına nail olunub. Bununla belə, pensiya təminatı sisteminin daim yenilənən müasir tələblərə uyğunlaşdırılması zəruriliyi bu sahədə bu gün də yeni çağırışlara cavab verən islahatların davam etdirilməsini şərtləndirməkdədir.

“Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun internet saytı ***(www.dsmf.nakhchivan.az)*** yaradılıb. Bu saytda bir sıra elektron xidmətlər fəaliyyət göstərir. Bunlardan biri də pensiya kalkulyatorudur. Saytdakı digər elektron xidmətlər kimi, bu xidmət də ödənişsizdir və həmin elektron xidmətin göstərilməsi üçün heç bir sənəd tələb olunmur.

Elektron xidmət vasitəsilə yaşa görə əmək pensiyası hüququ yaranmış şəxslər öz pensiya məbləğini hesablaya bilərlər. Belə ki, elektron xidmətdən istifadə üçün ***dsmf.nakhchivan.az*** internet ünvanına daxil olub “e-xidmətlər” bölməsinə keçid edərək Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən təqdim olunan elektron xidmətlərin siyahısından “Pensiya kalkulyatoru” elektron xidmətini seçmək lazımdır. Açılan pəncərədə elektron imza sahiblərinin elektron imza kartlarından istifadə etmələri, əgər istifadəçinin elektron imzası yoxdursa, istifadəçinin “elektron hökumət” portalından müvafiq məlumatları dolduraraq qeydiyyatdan keçməsi tələb olunur. İstifadəçi 1 yanvar 2006-cı ilədək iş stajını illər və aylar üzrə ayrılıqda daxil edərək “göndərmək” düyməsini sıxdıqdan sonra edilən sorğu real vaxt rejimində avtomatik olaraq cavablandırılır. İstifadəçinin soyadı, adı, atasının adı, sosial sığorta nömrəsi, 2006-cı ilə qədər və Dövlət Sosial Müdafiə Fondunda yaradılmış xüsusi proqram təminatından 1 yanvar 2006-cı il tarixdən əmək pensiyası hüququ yarandığı günədək ödədiyi məcburi dövlət sosial sığorta haqlarından hesablanmış pensiya kapitalı göstərilməklə pensiyanın məbləği barədə ətraflı məlumatlar kompüterinizin ekranında təqdim olunur. Bu xidmət vasitəsilə əldə etdiyiniz məlumatları mətn formasında kompüterinizin yaddaşında saxlaya, çap edə, eləcə də istənilən elektron poçt ünvanına göndərə bilərsiniz.

***Nurlan MUSTAFAYEV***
***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun əməkdaşı***

# Beynəlxalq Musiqi Festivalında naxçıvanlı bəstəkarların da əsərləri səsləndirilib

*Noyabrın 1-dən 5-nə kimi Bakı şəhərində Azərbaycan Bəstəkarlar İttifaqının 80 illik yubileyinə həsr olunmuş Beynəlxalq Musiqi Festivalı keçirilib. Festivalın keçirilməsində məqsəd Azərbaycan bəstəkarlıq məktəbinin keçdiyi inkişaf yoluna bir daha nəzər salmaq, gənc bəstəkarlara yeni istiqamətlər müəyyən etmək, Azərbaycan musiqisinin zənginliyini beynəlxalq müstəviyə çıxarmaqdan ibarət olub.*

Tədbiri açan Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadə ulu öndər Heydər Əliyevin Azərbaycan musiqi mədəniyyətinin inkişafına göstərdiyi qayğıdan danışıb. Tanınmış musiqi xadimləri ittifaqın fəaliyyətinin musiqi mədəniyyətimizdəki əhəmiyyətindən söhbət açıblar.

Qeyd edək ki, festivalda xarici ölkələrdən – İtaliyadan, Almaniyadan, Rusiyadan, Özbəkistandan gəlmiş musiqi xadimləri də iştirak ediblər.

Festivalın konsert proqramında simfonik əsərlərə, xor və orkestr, qanun və simfonik orkestr üçün yazılmış əsərlərə daha çox yer verilib.

Festivalda Üzeyir Hacıbəylinin, Cahangir Cahangirovun, Səid Rüstəmovun, Tofiq Bakıxanovun, Cövdət Hacıyevin, Nazim Quliyevin, Rəna Qədimovanın və başqalarının müxtəlif janrlarda yazılmış əsərləri səsləndirilib.

Qeyd edək ki, bu tədbirdə Naxçıvanda yaşayıb-yaradan bəstəkarların əsərlərinə də geniş yer verilib. Azərbaycan Respublikasının Xalq artisti Teymur Göyçayevin dirijorluğu ilə Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin ifasında Yaşar Xəlilovun "Əshabi-Kəhf" baleti festival iştirakçılarına təqdim olunub. Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında səsləndirilən bu balet Şərqdə ilahi sözə əsaslanan yeganə musiqili səhnə əsəridir. Azərbaycan simfonik musiqisində dini mövzuda yazılmış bu ilk əsərlə müəllif bir daha öz dahi müəllimi Qara Qarayevin dəst-xəttini davam etdirib.

Azərbaycan Bəstəkarlar İttifaqının Üzeyir Hacıbəyli adına Konsert Salonunda Azərbaycan Dövlət Televiziyası və Radiosu Cahangir Cahangirov adına Xor və Kamera ansambllarının iştirakı ilə Kamal Əhmədovun və Şəmsəddin Qasımovun əsərləri səsləndirilib. Kamal Əhmədovun violin və piano üçün "Kapriççio" (ilk dəfə), "Mən səni sevmişəm" romansı (sözləri Xanəli Kərimlinindir), Şəmsəddin Qasımovun xor və piano üçün "Mirzə Cəlil" kantatası (ilk ifa, sözləri Hüseyn Razinindir) alqışlarla qarşılanıb.

**Yeganə ƏSƏDOVA**
*Azərbaycan Bəstəkarlar İttifaqının üzvü, sənətşünaslıq üzrə fəlsəfə doktoru*

# Ənənəvi qış hazırlığı

*Xalqımıza məxsus məişət adət-ənənələrindən biri də soyuq qışa ərzaq tədarükünün görülməsidir. Ehtiyat ərzaq məhsullarının hazırlanması və saxlanılması qaydaları uzun əsrlər boyu formalaşmış, günümüzədək gəlib çıxmışdır. Aparılan arxeoloji qazıntılar zamanı aşkara çıxarılan iri küplər, ehtiyat ərzaq məhsullarını saxlamaq üçün nəzərdə tutulan tikililər xalqımızın hələ çox qədimlərdən ehtiyat məhsullar tədarükünün görülməsi səriştəsindən soraq verir.*

Xalqımız "qışdan qorxma ki, üzü yazadır, payızdan qorx ki, üzü qışadır" deyimini əsas tutaraq məişət işlərini buna uyğun qurmuşdur. Əhali yazın ilk aylarından başlayaraq payızın axırlarına, xalq dili ilə desək, payızın qışa dönən dövrünə qədər gündəlik tələbatdan artıq qalan məhsulları qışda istifadə etmək üçün tədarük etmişdir. Dənli bitkilər, maldarlıq məhsulları, müxtəlif yabanı yeməli bitkilər, bostan-tərəvəz məhsullarından və meyvələrdən hazırlanmış qax, doşab, tutma şorabalar, mürəbbələr, riçal, eləcə də ətirli ot dəstələri əhalinin tədarük gördüyü əsas qida məhsullarından olmuşdur. Mal-qara üçün yem tədarükü də qışın qayğıları içərisində olmuşdur. Payızlıq əkində son tamamlama işləri görər, ağac və bağlarda ziyanvericilərin məhv edilməsi, habelə meyvə ağaclarının vaxtından əvvəl çiçək açmasının qarşısının alınması məqsədilə onlara "don suyu" (çillə suyu) verərdilər.

Meyvəçilik təsərrüfatında meyvələrdən təzə-tər halda istifadə edilsə də, ehtiyat ərzaq məhsulları kimi qış üçün də tədarük edilərdi. Bu cür məhsullar həm də Novruz sovqatı arasında üstün tutulardı. Qurudulmuş armuddan, ərikdən, almadan qax, şaftalıdan (şaftalının xüsusi növü olan nazlı şaftalıdan) alana, miyanpur, cəvizdən sucuq, alçadan çırtma və sair hazırlanardı. Onu da qeyd edək ki, bu sahə üzrə Ordubad bölgəsi xüsusilə seçilirdi.

XIX əsrin sonu, XX əsrin əvvəllərində şəkər istehsalı genişləndikcə (əvvəllər bu məqsədlə doşab və bəkməzdən istifadə edilmişdir) əhali müxtəlif dadlı və ətirli meyvələrdən, giləmeyvələrdən (zoğal, böyürtkən, gilas, çiyələk) mürəbbələr hazırlayıb qış tədarükü görməyə başlamışdır. Qızılgülün ləçəklərindən də mürəbbə və gülqənd hazırlayıb qışa saxlamaq əhali arasında geniş yayılmışdır.

Meyvələrin ehtiyat ərzaq məhsulu kimi tədarükünün ən münasib yolu onların qurudulması idi. Xalq arasında meyvələrin qurudulmuşu "qax" adlanır. Meyvələrin qurudulması iki üsulla həyata keçirilir: birincisi, Günəş altında, ikincisi isə təndirdə, gillədə qurutmaq. Bu üsulların ən sadəsi birinci üsuldur. Onu da qeyd edək ki, hər bir meyvənin qurudulma müddəti və qurudulması üsullarında fərqlər vardır. XIX əsrdə meyvələrin qurudulmasında təndir və meyvəqurudan kürələrdən geniş şəkildə istifadə olunmuşdur. Qurudulmuş meyvələri qış boyu saxlayıb onlardan həm çərəz, həm də qənnadı məhsulu kimi istifadə etmişlər. Artıq qalan məhsul bazara çıxarılıb taxılla dəyişdirilirdi və ya satılırdı. Akademik Teymur Bünyadov yazır ki, Ordubadlılar XX əsrin əvvəllərində hər il 15 min pud ərik qurusu satardılar.

Mənbələrdə göstərilir ki, meyvələrin qurulması qədim dövrlərlə səsləşir. Bu haqda tarixin atası Herodot Araz çayı boyunca yaşayanların yay aylarında ağaclardan dəymiş meyvələri yığıb ehtiyac üçün saxladıqlarını yazır. Onu da qeyd edək ki, meyvələr quruduqca vitamin dəyəri daha da artır.

**Ərik.** Əriyin içərisindəki çəyirdəyi (dənəni) çıxarıb qurudurlar. Qurudulmuş ərik "qax" adlanır. Əriyi qurudulan zaman çəyən biçib əriyin altına sərərlər ki, yağan yağış çəyənin altından axıb getsin, onun dadını aparmasın. Əriyin qurudulması zamanı "şalağ", "limon" adları ilə bilinən ərik növlərindən istifadə edilirdi. Ərik qurudulduqdan sonra qurdlanmaması üçün qaynadılmış duzlu suya salınıb çıxarılır. Ağbirçək nənələrimiz qurudulmuş əriyin rəngi sarı olsun deyə, həmin şor suya möv yarpağı da atardılar.

**Alana.** Nazlı şaftalı növünün (dənədənayrılan – Ordubadda dənədənayrılan şaftalıya "güşdü" deyilir) qabığını soyub 1-2 gün kölgədə saxlayırlar. Şaftalı ala-nəm (alana sözünün "ala-nəm" sözündən yarandığı deyilir) olduqdan sonra dənəsini saplağı olan yerdən çıxarırlar. Əvvəlcədən hazırlanmış olan qarışım (cəviz, şəkər tozu, ədva (əksər bölgələrdə bu qarışım "iç" adlanır) şaftalının içinə yığılır. Sonra isə başqa şaftalıdan kiçik hissələr qoparıb dənə çıxarılan yerə qoyub möhkəm sıxırlar ki, kifləməsin. Hazırlanmış olan şaftalılar sapa düzülərək quruması üçün kölgə yerdən asılıb 2-3 həftə müddətində qurudulur.

**Miyanpur** (miyanpor "ortası dolu" deməkdir). Ordubad bölgəsində hazırlanır. Alana ilə miyanpur eyni qaydada nazlı şaftalıdan düzəldilir. Alanadan fərqli olaraq, miyanpurun içinə hazırlanmış qarışım deyil, cəviz ləpəsi qoyurlar. Cəvizin tərkibində yağ çox olduğundan miyanpur uzun müddət qala bilir.

**Sucuq.** Sucuq hazırlamaq üçün cəviz yaş-yaş sapa düzülərək qurudulur. Un, şəkər tozu, ədva, doşab (rəngi üçün) qarışdırılaraq bulamac bişirilir. Bişirilmiş bulamac bir qədər soyudulur, sonra sapa düzülmüş cəviz ləpəsini qazanın içində olan isti bulamaca batırıb-çıxarır (bu qayda bir neçə dəfə təkrar edilir), sonra qurutmaq üçün ipə asırlar. Sucuq elə yerdə saxlanılır ki, həmin yerdə rütubət olsun. Rütubət sucuğun yumşaq qalmasına kömək edir. Toplanmış materiallardan məlum olur ki, sucuğun yumşaq qalması üçün onu düyü ununun hazırlamaq da məsləhət görülmüşdür. Ordubad bölgəsinin bəzi kəndlərində sucuğa "basdıq" deyilir.

Təkcə dadlıqlar və çərəzlər deyil, bostan-tərəvəz bitkiləri də həm şoraba (şorava), həm də qurudulmuş halda qış üçün tədarük edilir. Bostan-tərəvəz bitkilərindən ehtiyat ərzaq məhsulu kimi tədarük olunanlardan badımcan, pomidor, lobya, bibər, qovun və sairəni misal göstərmək olar.

**Qovun.** Qovunu qışa, çilləyə saxlamaq üçün onu otun, samanın içinə yığırlar. Toplanmış materiallardan məlum olur ki, qışa saxlanılan qovun növü "Şineyvaz" adlanır. Bundan əlavə, qovunu qax eləyib, yəni dilim-dilim doğrayıb Günəşdə qurudub qış üçün saxlayardılar.

Xalqımız heyvandarlıq təsərrüfatı ilə bağlı məhsulları da (qovurma, cızdıq, pendir, qurut və sair) ənənəvi üsullarla qış üçün hazırlamış və hazırlamaqdadır. Bu haqda növbəti yazımızda bəhs edəcəyik.

Ulularımız payız fəslində lazımi təsərrüfat və məişət işlərini görməklə yanaşı, qışı qarşılamağı da unutmamışlar. Qədim dövrlərdən insanlar qışa bədxah qüvvələrin əməli kimi baxmışlar. Odur ki, qışı saymamaq, ona qarşı çıxmaq cəhdi ilə hələ fəslin başlanmasına xeyli vaxt qalmış "Kövsəc" adlanan xüsusi mərasim keçirərmişlər.

Kövsəc mərasimi, adətən, noyabr ayında – qırovdüşən ayda icra edilərmiş. Mərasim iştirakçıları, əsasən, bədənə istilik verən yeməklər, yağlı ət, xəşil, istiot qatılmış xörəklər yeyərmişlər. Mərasim zamanı özünü gülməli vəziyyətə salmış bir nəfər qatıra minib əlində "tükü tökülmüş qarğa" tutarmış. Bu zaman kənardakı insanlar onun üstünə su səpirmişlər. Buna baxmayaraq, o, saymazyana "istidir-istidir" deyə bağırarmış.

Bundan başqa, Naxçıvanda qışı qorxutmaq üçün payız fəslinin axırlarında məhəllə xarakterli "Həsirçırpma" adlı mərasim keçirərmişlər. Mərasim zamanı insanlar həsiri ağacların koğuşuna çırpar, çıxan gurultulu səslə qışın qorxudulduğuna inanılarmış.

Son olaraq qeyd edək ki, insanlar qış üçün ərzaq, yanacaq ehtiyatını fəsillərə, ilin müəyyən dövrlərinə uyğun aparmışlar. Məlum olmuşdur ki, bunlara əməl edilməsi toplanan məhsulların xarab olmamasına, ehtiyatın tükənməməsinə səbəb olmuşdur.

**Asəf ORUCOV**
*AMEA Naxçıvan Bölməsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru*

*Yeni nəşrlər*

# Tarixdə türk adları




*Qədim uyğur türkləri Mərkəzi Asiyanın özünəməxsus zəngin onomastikaya malik xalqlarından biridir. Bu onomastik vahidlər mürəkkəb, eyni zamanda mütəşəkkil bir sistemə malikdir. Qeyd edək ki, uyğur türklərinin onomastikası dedikdə VIII yüzilliyə qədər Çin mənbələrinə qədərki lüğətlərdə və digər yazılı mənbələrdə öz əksini tapmış bütün xüsusi adların toplusu başa düşülür. Bu məsələ türkologiyada ciddi əhəmiyyət kəsb etdiyindən və aktual olduğundan həmin dövrün onomastikasının formalaşması prinsiplərinin və işlənməsi xüsusiyyətlərinin sistemli tədqiqi vacib məsələdir.*

AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Əbülfəz Quliyevin işıq üzü görən "Qədim uyğur türklərinin onomastikası" adlı monoqrafiyası mühüm türkoloji mənbə olmaqla yanaşı, həm də dilçilik elminə layiqli töhfədir. AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin qərarı ilə çap olunan bu monoqrafiyanın elmi redaktoru AMEA-nın müxbir üzvü Nizami Cəfərov, rəyçiləri akademik Tofiq Hacıyev və filologiya elmləri doktoru, professor Əbülfəz Rəcəbovdur. Professor Əbülfəz Quliyevin gərgin zəhməti və çoxillik tədqiqatları sayəsində ərsəyə gəlmiş bu monoqrafiyada ilk dəfə qədim uyğur türklərinin onomastikası leksik-semantik baxımdan sistem halında tədqiq edilmişdir.

Monoqrafiyanın girişində müəllif qeyd edir ki, qədim uyğur türkləri göytürklərin davamçıları olduğu kimi, özlərinə məxsus mənəvi-mədəni irslərini, ənənələrini, o cümlədən yazı ənənələrini də qoruyub saxlamışlar. Buna görə əsərdə qədim uyğur onomastikası üç bölmə – "Ötükən uyğurlarının (745-840) onomastikası", "Turfan uyğurlarının onomastikası (840-1206)" və "Kutadqu bilig"in onomastikası" bölmələri üzrə araşdırılmışdır. Kitabda həmçinin qədim uyğur onomastik vahidlərində özünü göstərən göytürk onomastikası ilə oxşar və fərqli xüsusiyyətlər də təhlil edilmişdir.

Müasir türkologiya üçün dəyərli mənbə olan bu monoqrafiya giriş, səkkiz bölmə, nəticə, ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Müəllif zəngin dil faktları ilə yanaşı, son illərin nəşri olan 200-ə yaxın elmi ədəbiyyatdan da istifadə etmişdir. Əsərdə qədim uyğur türklərinin onomastikası təsviri şəkildə və ümumtürk dillərinin onomastikası ilə müqayisəli planda tədqiq edilmişdir. Burada müəllif indiyə qədər uyğur türklərinin onomastikasının tədqiqolunma arealına da öz münasibətini bildirmişdir.

Professor Əbülfəz Quliyevin "Uyğur türklərinin onomastikası" adlı monoqrafiyasının əhəmiyyət kəsb edən cəhətlərindən biri də V-XI əsrlərdə yazılmış qədim türk abidələri onomastikasının sistemli şəkildə araşdırılmasının nəticəsi olaraq əsərin sonunda 19 ümumiləşdirilmiş nəticə verməsidir. Əsərin "Nəticə" adlanan hissəsində kitabı oxumadan belə, qeyd edilən ümumiləşmiş, yığcam qənaətlər hesabına bəhs edilən mövzu haqqında konkret məlumat, bilik əldə etmək mümkündür. Müxtəlif dövrlərdə yaranıb dilin tarixinə daxil olmuş xüsusi adlar – onomastik vahidlər o dövr cəmiyyətinin vəziyyəti, ictimai quruluşu haqqında müəyyən informasiyanı özündə əks etdirir.

Qədim onomastik layın tarixi-etimoloji tədqiqi XI yüzillikdə türk dillərindəki leksik prosesləri izləməyə, bu prosesin etnolinqvistik xüsusiyyətlərini aşkarlamağa, tarixi fonetika, leksikologiya, morfologiya, etnonimika, etnotoponimika məsələlərinə işıq tutmağa, həmçinin qədim uyğur türklərinin dövrü və mühitinin, onların etnik tarixinin, etnogenezinin ətraflı elmi şərhini verməyə imkan verir. Tarixi onomastik layın tarixi-etimoloji tədqiqi həm də qədim türk tayfalarının ərazicə yayılma arealının və onların dil xüsusiyyətlərinin dəqiq təyin edilməsinə imkan yaradır. Məhz bu məziyyət monoqrafiyanın mövzusunun aktuallığını və əhəmiyyətini şərtləndirməkdədir.

Beləliklə, adıçəkilən əsər türk dillərinin onomastik layının üzə çıxarılması və öyrənilməsində, tətbiqi baxımdan tarixi onomastik (antroponimik və toponimik) lüğətlərin hazırlanmasında faydalı elmi mənbə hesab oluna bilər. Ümumiyyətlə, monoqrafiya öz elmi dəyərinə görə tarixi onomastikadan xüsusi kursların tədrisində, proqram, dərslik və dərs vəsaitlərinin yazılmasında, həmçinin onomologiya sahəsi üçün, türk dillərinin dialektologiyası, lüğətçilik, bütünlükdə türk xalqlarının soyökü, etnoqrafiyası, tarixi, coğrafiyası üçün xüsusilə faydalı əsərdir.

**Zülfiyyə İSMAYIL**
*filologiya üzrə fəlsəfə doktoru*

**Bildiriş**

"Etimad Naxçıvan" Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN-0200637451) fəaliyyəti dayandırıldığından ləğv olunur.

**İtmişdir**

Səfərli Sərxan Nazim oğlunun adına verilmiş hərbi bilet itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 545-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 970